**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№346/3** **28 iyul 2022-ci il**

**PL/TMM üzrə risklərin müəyyən edilməsinə dair proqram təminatı barədə**

"Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasında (2021-2030-cu illər)" həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin təqvim planının 14-cü "Auditin tənzimlənməsi, təşkili və aparılmasına dair metodik vəsait və tövsiyələrin hazırlanması" bəndinin 38-ci "PL/TMM üzrə proqram təminatının yaradılması" altbəndinin və Palatanın 2022-ci il üzrə iş planının 1.11-ci "PL/TMM üzrə proqramların əldə edilməsi və təşviqi" bəndinin icrası məqsədilə Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsi (Q.Əhmədov) və Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi (E.İbrahimov) tərəfindən hazırlanmış "PL/TMM üzrə risklərin müəyyən edilməsinə dair proqram təminatı"nın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "PL/TMM üzrə risklərin müəyyən edilməsinə dair proqram təminatı" bəyənilsin (əlavə olunur).

2. Cari ilin 29 iyun tarixində "PL/TMM üzrə risklərin müəyyən edilməsinə dair proqram təminatı" (moderator – F.Qarayev, məruzəçi – Q.Əhmədov) barədə seminarın keçirilməsi nəzərə alınsın.

3. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində "PL/TMM üzrə risklərin müəyyən edilməsinə dair proqram təminatı"nın Palatanın üzvləri olan auditor təşkilatlarına və sərbəst auditorlara çatdırılması təmin edilsin.

4. Sədrin müşaviri F.Qarayevə və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) tapşırılsın ki:

4.1. üç həftə müddətində Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən "PL/TMM üzrə risklərin müəyyən edilməsinə dair proqram təminatı"nın hazırlanması barədə məlumatın Palatanın tam hüquqlu üzvü olduğu Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC), Avropa Mühasiblər və Auditorlar Federasiyasına (EFAA), habelə Avrasiya Mühasiblər və Auditorlar Qrupuna göndərilməsi təmin edilsin;

4.2. bir həftə müddətində bu qərarın və "PL/TMM üzrə risklərin müəyyən edilməsinə dair proqram təminatı"nın auditorun şəxsi kabineti sistemində yeni yaradılmış "Metodik dəstək" bölməsində və Palatanın internet səhifəsinin "PL/TMM dair materiallar" bölməsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**